# Birinci Qarabağ müharibəsinin itkin şəhidləri torpağa tapşırılıblar









Birinci Qarabağ müharibəsinin daha bir itkin şəhidi - Lətif Qəribalı oğlu Şahhüseynov oktyabrın 28-də Sumqayıt Şəhidlər xiyabanında dəfn olunub.

AZƏRTAC xəbər verir ki, dəfn mərasimində şəhidin ailə üzvləri, Müdafiə və Daxili İşlər nazirliklərinin əməkdaşları, Sumqayıt Şəhər İcra Hakimiyyətinin nümayəndələri, Milli Məclisin deputatları, müharibə veteranları, şəhid ailələri və sakinlər iştirak ediblər.

İtkin şəhid yaylım atəşi və hərbi orkestrin müşayiəti ilə Dövlət Himnimizin sədaları altında torpağa tapşırılıb. Şəhidin ruhuna dualar oxunub, məzarının üzərinə əklil qoyulub, gül dəstələri düzülüb.

Tabutun büküldüyü Azərbaycanın Dövlət bayrağı şəhidin yaxınlarına təqdim olunub.

Şəhidin bacısı Mələk Şahhüseynova bildirib ki, qardaşı Vətənin dar günündə Sumqayıt Hərbi Komissarlığından hərbi xidmətə çağırılıb. Əvvəlcə Yevlaxa, oradan da döyüş bölgəsinə yollanıb. Xocavənd istiqamətində isə itkin düşüb: "Lətifi Zaqatalada başqa bir ailə öz şəhidi kimi dəfn edibmiş. Həmin ailə hər önəmli tarixdə onun məzarını ziyarət edib, öz şəhidləri kimi ehtiramını saxlayırmış. Lakin onların daxilində məzardakı şəhidin onlara aid olmamasına dair şübhələr var imiş. Nəhayət ki, uzun illərdən sonra bununla bağlı aidiyyəti qurumlara müraciət ediblər. DNT analizləri nəticəsində nəşin qardaşım, Birinci Qarabağ müharibəsinin itkin şəhidi Lətif Şahhüseynova aid olduğu müəyyənləşib. 33 ildən sonra bizə nəşi təhvil verildi və Sumqayıt Şəhidlər xiyabanında adına layiq şəkildə dəfn etdik. Zaqataladakı həmin ailəyə də baş çəkmək niyyətindəyik. Valideynlərimizin ikisi də beş il əvvəl eyni gündə övladlarının tapılma xəbərini eşitmədən dünyadan köçdülər. Kaş ki, onlar da eşidər, bu dünyadan nigaran getməzdilər. İtkin analarına, doğmalarına səbirdözüm diləyirəm. Bu, bizim üçün həm kədərli, həm də xoş xəbərdir. Bu gün həm də sevinirik. Bu illər ərzində bizi tək qoymayan, bu gün də şəhidimizin dəfnində iştirak edən hər kəsə təşəkkür edirəm. Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya və aidiyyəti qurumlara göstərdikləri dəstəyə, nisksilimizə son qoyduqlarına görə minnətdarlığımı bildirirəm. Torpaqlarımız azad ediləndə itkinlərimizin tapılacağına ümidimiz yaranmışdı. Bu gün biz öz həsrətimizi sonlandırdıq. Biz qardaşımla, bütün şəhidlərimizlə fəxr edirik. Ümid edirik ki, tezliklə bütün itkin ailələri öz şəhidlərinə qovuşar, gözləri yollardan çəkilər".

Qeyd edək ki, Birinci Qarabağ müharibəsi şəhidi L.Şahhüseynov 1969-cu il martın 12-də Sumqayıt şəhərində anadan olub. O, 1992-ci il iyunun 28-də Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi istiqamətində gedən döyüşlərdə itkin düşüb. L.Şahhüseynov Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən və şəxsiyyətləri müəyyənləşdirilərək bu gün dəfn olunan üç şəhiddən biridir.

❖ ❖ ❖

Oktyabrın 28-də Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən və nəşinin qalıqları 33 il sonra tapılan şəhid Abdulla Novruz oğlu Quliyevin dəfn mərasimi keçirilib.

Abşeron rayonunun Saray qəsəbəsindəki qəbiristanlıqda təşkil olunan mərasimdə mərhumun yaxınları, dövlət və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Dəfn mərasimində şəhidlərimizin ruhuna dualar oxunub, xalqımıza və dövlətimizə sülh və əmin-amanlıq arzulanıb, şəhidin məzarına tər güllər düzülüb, əklil qoyulub.

Mərasim zamanı itkin şəhidin qardaşı Əhəd Abdulla haqqında xatirələrini bölüşərkən deyib:"Bu gün bizim üçün həm kədərli, həm də qürurverici gündür. 33 il əvvəl Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən, bu gün isə nəşi tapılaraq Vətən torpağına tapşırılan qardaşımın ruhu qarşısında baş əyirəm. O illər çox çətin idi. Hər şey gözlənilmədən baş verdi. Müharibənin yaratdığı qarışıqlıq, məlumat çatışmazlığı səbəbindən biz uzun illər onun taleyindən xəbər tuta bilmədik. Lakin Vətənimizin güclənməsi, dövlətimizin apardığı məqsədyönlü siyasət nəticəsində bu gün şəhidimizin nəşinə qovuşduq. Allah dövlətimizi və ordumuzu qorusun. Qardaşım Abdulla sadə, lakin qürurlu bir insan idi. O, Vətəni hər şeydən üstün tuturdu. Ailəmiz üçün böyük bir dayaq, el-obamızdan ötrü isə əsl mərdlik nümunəsi idi. Onun yoxluğu illərlə qəlbimizdə böyük bir yara kimi qaldı. Bu illər ərzində çox əzablar, sınaqlar gördük. Lakin bu gün, 33 il sonra onun şəhid kimi torpağa qovuşması bizim üçün həm təsəlli, həm də qürur mənbəyidir. Qardaşımın ruhu artıq rahatdır, çünki Vətən torpaqları azaddır. Mən bütün şəhid ailələrinə səbr, qazilərimizə isə sağlamlıq arzulayıram. Qardaşımın xatirəsi bizim üçün hər zaman müqəddəs olacaq".

İtkin şəhidin bacısı Xədicəxanım Əliyeva mərasimdə çıxış edərək qardaşı haqqında duyğusal xatirələrini bölüşüb. O, qardaşının məsuliyyətli, mərd və fədakar bir insan olduğunu qeyd edib: "Abdulla uşaqlıqdan cəsarətli, qayğıkeş və vətənpərvər idi. Mən onun necə böyüdüyünü, necə formalaşdığını gözlərimlə görmüşəm. Elə bil ki, o, Vətən üçün doğulmuşdu. O, könüllü şəkildə müharibəyə yollandı. Anamız ona "getmə" desə də, Abdulla demişdi ki, əgər mən getməsəm, kim gedəcək, beləcə, heç bir tərəddüd etmədən cəbhəyə yola düşdü".

O bildirib ki, Abdulla onun üçün təkcə qardaş deyil, həm də mənəvi dayaq olub. "Onun itkisi bütün ailə üçün ağır zərbə olub. Lakin şəhid kimi xatırlanması bu ağrını bir qədər yüngülləşdirir. Müharibənin ilk günlərində onun haqqında xəbər ala bilmədik. Hər gün ümidlə gözləyirdik. Mən bir gecə yuxuda onu gördüm, əlimi tutdu, barmağımı sıxdı. O an anladım ki, artıq bizdən uzaqlaşıb. Üç gün sonra isə xəbər gəldi: Abdulla şəhid olub. O, yaralı vəziyyətdə döyüş meydanında qalıb, amma son ana qədər döyüşüb. Bu gün isə onun ruhu rahatdır, çünki uğrunda döyüşdüyü torpaqlar azaddır. Dövlətimizə, ordumuza və şəhidlərimizin ruhuna borcluyuq. Hər kəsin diqqəti, qayğısı bizim üçün böyük təsəllidir", - deyə o diqqətə çatdırıb.

Şəhidin bacısı Sevda İsayeva da mərasimdə çıxış edərək, uzun illər qardaş həsrəti ilə yaşamağın ağrısını, eyni zamanda onun nəşinə qovuşmağın yaratdığı təsəllini dilə gətirib: "Tam 33 il qardaşımın itkin olması xəbəri ilə yaşadıq. Bu illər bizim üçün həm ağrılı, həm də ümidsiz idi. Gözlərimiz daim yolda, qulaqlarımız səsdə idi. Hər qapı döyüldükdə ümid edirdik ki, bəlkə Abdulla qayıdacaq. Bu hissi yalnız itkin ailələri anlayarlar".

O deyib ki, qardaşının nəşinin tapılması və şəhid kimi torpağa tapşırılması ailə üçün böyük mənəvi rahatlıq gətirib: "Çox şükürlər olsun ki, Müzəffər Ali Baş Komandanımızın, ordumuzun, şəhidlərimizin və qazilərimizin sayəsində torpaqlarımız azad olundu. Qardaşımın da qanı yerdə qalmadı. Bu gün bizim üçün kədərin içində təsəlli günüdür. Çünki gedib baş əyməyə, dua etməyə, çiçək qoymağa bir məkanımız var. Allah bütün şəhidlərimizə rəhmət eləsin, ruhları şad, məkanları cənnət olsun! Qardaşım Abdulla, rahat yat! Sənin canından, qanından keçib, azad etdiyin torpaqlar bu gün bizimdir. Sənin ruhun artıq azad Qarabağın üzərində dolaşır. Qürur duyuruq ki, sən bu Vətənin qəhrəman oğullarındansan", - deyə o vurğulayıb.

Sevda İsayeva dövlət tərəfindən şəhid ailələrinə göstərilən qayğıya görə minnətdarlığını ifadə edib.

Qeyd edək ki, şəhid A. Quliyev 1968-ci il oktyabrın 26-da Göyçay rayonunda anadan olub. O, Birinci Qarabağ müharibəsində döyüşlərdə iştirak edib və 1992-ci il mayın 8-də Şuşa şəhərində itkin düşdüyü güman olunurdu. A. Quliyev Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən və şəxsiyyətləri müəyyənləşdirilərək bu gün dəfn olunan üç şəhiddən biridir.

❖ ❖ ❖

Birinci Qarabağ müharibəsinin daha bir itkin şəhidi Mübariz Ağahüseyn oğlu Şahmurov oktyabrın 28-də Bakının Nizami rayonunun Keşlə qəsəbəsində yerləşən Şəhidlər xiyabanında dəfn edilib.

Dəfn mərasimində şəhidin ailə üzvləri, Müdafiə və Daxili İşlər nazirliklərinin əməkdaşları, Nərimanov, Nizami, Suraxanı Rayon İcra hakimiyyətlərinin nümayəndələri, müharibə veteranları, şəhid ailələri və sakinlər iştirak ediblər.

İtkin şəhid yaylım atəşi və hərbi orkestrin müşayiəti ilə Dövlət Himnimizin sədaları altında torpağa tapşırılıb. Şəhidin ruhuna dualar oxunub, məzarının üzərinə əklil qoyulub, gül dəstələri düzülüb. Tabutun büküldüyü Azərbaycanın Dövlət bayrağı şəhidin yaxınlarına təqdim olunub.

Qeyd edək ki, Birinci Qarabağ müharibəsi şəhidi M. Şahmurov 1963-cü il iyunun 12-də Sabirabad rayonunun Navdan kəndində anadan olub. O, 1992-ci il fevralın 26-da Xocalı rayonu istiqamətində gedən döyüşlərdə itkin düşüb. M.Şahmurov Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən və şəxsiyyətləri müəyyənləşdirilərək bu gün dəfn olunan üç şəhiddən biridir.